

Nuşabə Əsəd Məmmədli

# Üfüqə doğru

(Hekayə)

(əvvəli ötən sayımızda)

***Əli atasını Hacıkəndə, Qöy-Gölə, Xaçbulağa aparırdı, Gəncədə birlikdə anasının qəbrini ziyarət edirdilər. Anası xəstə olanda qonşu qara Roza ona qulluq edirdi. Əli onda ona Qaya Yoza deyirdi. Yuxsuzluqdan gözləri şişmiş atası Əlinin tələffüzünü düzəltməyə çalışırdı.***

***-Əli, qaya yoza yox, Qara Roza.***

***İsmayıl müəllim dönə-dönə Əliyə R hərfinə olan sözləri dedizdirirdi—kukuruz, Rəna, Ramiz, rəqs. Əli deyirdi—kukuyuz, Yəna, Yamiz, yəqs. İsmayıl müəllim uşağın danışığını düzəldikçə, Əli əsəbləşirdi və onda sanki dili tutulurdu. Bəzən suallara cavab vermək iqtidarında olmurdu. Lal kimi atasının üzünə baxırdı.***

***Danışmağa başlayanda kəkildəyə-kəkildəyə danışırdı:***

***-D..d..ə m..ə..n cu istə..yirə..m.***

***Onda İsmayıl müəllim ulu babası lal seyid Hüseyni xatırladı. İsmayıl müəllim uşağı loqopedin yanına apardı. Əli düz bir il loqoped həkimin yanına getdi.***

Tədricən Əli sərrast danışmağa başladı. Loqoped həkim də Əlinin güsurlu danışmağını qenlərlə əlaqədar olmağını söyləmişdi. Əlini müayinə edəndən sonra, Həkim İsmasyıl müəlimdən soruşmuşdu—nəslinizdə nitqi qüsurlu adam olub

-Ulu babam lal olub.

-Eybi yoxdur. Bir iki aydan sonra elə danışacaq ki, yoracaq sizi.

-Təki o, söhbətlərinnən yorsun məni.

Əlinin hər sözü sonsuz xöşbəxtlik bəxş edirdi atasına. Əgər müdhiş keçmişi olmasaydı və həyatı qədər sevdiyi həyat yoldaşı da onu tez tərk etməsəydi, dünyanın bəxtəvər insanlaından olardı. Arvadı öləndən sonra İsmayın müəllim oğlunu bir müddət heç bağçaya da qoymadı. Uşaqı özü çimizdirirdi, özü yedizdirirdi. Onu hər dəfə loqopedin yanından gətirəndə kitab mağazasına aparırdı, Əliyə rəngli, səsli kitablar alırdı. Qara Rozanın oğlu Vüqar Əliyə hərfləri sonra da oxumağı öyrədirdi. Vüqar Əlidən 4-5 yaş böyük idi. Çox istiqanlı oğlan idi. İsmayıl müəllim Qara Roza, əri Tələt və oğlu Vüqar üçün pul ayırırdı. Bir ailə kimi dolanırdılar. Tələt İsmayl müəllimin pulunu almaq istəməyəndə, İsmayıl müəllim onu məzəmmət edirdi.

-Nə tez yorulduz mənnən? Mən sizin hamınızdan yaşlıyam, mənim sözümə baxmasanız danışmaram siznnən.

Tələt də, Qara Roza da pulu götürüb bazara gedirdilər. İsmayıl müəllim də uşağını parkda əyləndirirdi. Evə dönəndə süfrə açıq olurdu. Əli Qara Rozanın bişirdiyi yeməyi xoşlayırdı.

***

İsmayıl müəllim oğlunu gözləyirdi. Əli dünən təyyarəylə Bakıya düşmüşdü.

İndi maşınla Gəncəyə gəlirdi. Demişdi:

-Dədə uşağı dosdumgildə qoyub sənin yanına gələcəm yaxşımı? Atası demədi ki uşağı da gətir "Eybi yoxdur mən gündüzlər atamın yanında, gecələr uşağımnan Fəxrəddingildə qalaram. İsmayıl balam istiqanlıdır, dostumun uşaqlarını çox istəyir.

Pandemiyadan qabaq məktəb dostu Fəxrəddin yəyat yoldaşı və uşaqları ilə Əli gildə Budapeştdə oldular, Balaton gölündə istirahət etdilər, Vyananın gözəlliklərini seyr etdilər. Balaca İsmayıl Fəxrəddinin uşaqlarina çox isnişmişdi.

Sentyabrın 27-də müharibə başlamışdı. Düşmən artıq Gəncəni də hədəfə almışdı. Aida Əli və İsmayılı ağlaya-ağlaya yola saldı.

-Bəlkə indi getməyəsiniz? Bəlkə İsmayılı aparmayasan?

-Mən istəyirəm oğlum Vətənini görsün. Və onlar vidalaşdılar. Əli düşündü ki oğlu artıq onunla Vətənə yola düşür. Bir neçə saatdan sonra Əli atasını görəcəkdi.

-Oğul, mən səni Fəxrəddin əmigilə aparacam, sən onlarda qalarsan, mən babaya baş çəkib qayıdacam, yaxşımı?

-Mən də babanı görmək istəyirəm.



Yadına dünən gördüyü yuxu düşdü—Seyid Hüseyn iki əlini başına aparıb bomb...bomb deyirdi. Seyid Hüseyinin gözlərindən yaş axırdı Bəlkə də yarı yuxulu vəziyyətdə gördüyü bir ilğım idi. İsmayıl müəllim ınanırdı ki, ulu babası təsaədüfən görünməyib gözünə. Onun Əlidən başqa heç kimi yox idi. İsmayıl müıllim istəyərdi ki, özü tikə-tikə doğransın, ya da ki diri-diri odda yansın—təki oğluna bir şey olmasın. "Ölüm mənimdir oğul. Meyitim çiynində getsin, oğul"

***-İnşallah, baba hələlik xəstədi, yaxşı olanda apacam səni onun yanına.***

***-Fəxrəddin əmi yadındadı? Uşaqları yadındadı? Keçən il gəlmişdilər bizə. Elə dostlaşmışdınız ki, qoymurdun onları Azərbaycana qayıtsınlar. Onlar gedəndə ağladın.***

***-Yaxşı, ata,sən tək get babamın yanına, mən Fəxrəddin əmigildə qalaram,—bunu İsmayıl qəhər boğa-boğa dedi. Əli oğlunu bağrına basdı.***

***Gəncəyə şatanda artıq şər qarişırdı. Əli oğlunu dostu gilə aparıb atasının yanına yollandı. Nədənsə halı pis idi. Atası onu görcək ayağa qalxdı, qucaqladı nədənsə ağlamaq istədi, ancaq göz yaşlarını içinə saldı. "Əsas odur ki, Əli sağ-salamat gəlib çıxdı yanıma. Səni tanımayana lənət böyük Allahım. Nə yaxşı təyyarə qəzası olmadı, nəqliyyat qəzası olmadı, balam salamat gəldi" Qara Roza süfrə açdı.***

-Narahat olma Roza xala, mən dostum gildə dolma yedim.

-Qadan alım mən plov bişirmişəm.

Əli aldığı hədiyyələri açdı—Atasına aldığını bir tərəfə, Qara Roza, Tələt əmiyə, Vuqara aldıqlarını elə iri çantada onlara verdi. Sevindi ki, Vüqar artıq Gəncədə tanınmış kardioloqdur. Halal olsun. Sonra Əli çantasından macar arağı çıxartdı və atasına uzatdı.

-Al ata özün aç, sənin təcrübən çoxdu bu işdə.

İçəri daxil olan Tələt Əliynən görüşdü, arağı İsmayıl müəllimdən alıb Qara Rozanın gətirdiyi qədəylərə süzdü. Onlar xeyli söhbətləşdilər, mövcud vəziyyəti müzakirə edirdilər. Qarabağda qızğın müharibə gedirdi. Əlinin içkidən başı dumanlanırdı. Ancaq bu duman içində o, oğlu ismayılı görürdü. Nədənsə təyyarədə qısa müddətli yuxusunda gördüyü nuranı qocanın ağlamağını gördü. Əli balasından ötrü darıxırdı, sanki havası çatmırdı. "Gərək gətirərdim uşağı....Yox atam onu evə buraxmasaydı neynərdim?" Ürəyi gizildədi. Nurani qoca sanki ilğım kimi gözlərimin gənşərimdən getmirdi. "Bəlkə, bəlkə mən də ulu babamı atamın söhbət açdığı Seyid Hüseyn Səfəvini gördüm röyamda? Əli istədi bu sualı atasına versin, Ancaq tükürpərdici səs eşitdi. Gəncəyə bomba atıldı. Evin pəncərələri çilik-çilik oldu. Masanın üstündəki qədəylər yerə çırpıldı. Bomba xeyli aralı düşdü. Lənətə gəlmişlər! İsmayıl müəllim siqaret yandırdı. Əli tez pencəyini geyinib, Tələtin maşınıyla oğlunun yanına tələsdi. Oraya çatanda, bədəni əsməyə başladı. Fəxrəddinin evi yernən yeksan olmuşdu. Kimlərdənsə eşitdi ki, dostu da, həyat yoldaşı da, uşaqları da, bir də Macarıstandan gələn uşaq həlak olublar. Hamısını aparıblar meyitxanaya. Əli bilmədi onun qolundan kim tutdu, kim xəstəxanaya apardı. Onu bilirdi ki, parça—parça olmuş oğlu qoyulmuş yerin qanını yalayırdı, xəstəxananın qan sıçramış divarını yalayırdı. Kimsə din xadimlərindən biri:

-Əli müəllim, meyiti torpağa tapşırmaq lazımdır. Məzarlıqda yeriniz varmı?

-Var. Sərdabə... anamın yanında.....

O yanındakı adamlara atası evinin ünvanını dedi.

İsmayıl müəllim televizora baxırdı. Qara Roza döşəmədən şüşə qırıqlarını yığırdı Aparıcı həyacanla deyirdi:

***-Erməni bombası erməni ananın oğlunu öldürdü. Ölən uşağın anası ağır vəziyyətdə Budapeşt xəstəxanasına çatdırılıb— geniş infarkt. Vəziyyəti ağırdı.***

***Əli atasının ayağını qucaqladı, başını onun dizlərinə söykəyib honkür—honkür ağladı:***

***-Dədə icazə ver oğlumu sərdabədə dəfn edim....anamın yanında... İstəmirəm balam bizdən ayrı düşsün.***

***-Yox, mən istəmirəm erməninin südünnən böyüyən bir uşaq bizim yanımızda dəfn olunsun.***

***Də.. də Qaya Yoza da, Tələt əmi də istəyəki İsmayıl nənəsinin yanında olsun. Də..də mən də ölmək istəyiyə... Oğlum lö lö vuymuydu, balam kitab oxuyurdu.***

***Sonra o ağzını açırdı, ancaq səsi çıxmırdı.***

İsmayıl müəllim elə bir ayıldı—Əlinin ayaqları qıc oldu. O, atasının ayaqlarından aralanıb yerə çırpıldı. Onun ağzından köpük gəldi.

-Oğul, oğul!

İsmayıl müəllim əlini onun ağzına salıb dilini çıxartdı. Qara Rozanın çağırdığı təcili yardım həkimi tez Əliyə maqnezium vurdu. Onu divanda uzandırdılar.

"İtin olaram Allah, məni balamın qabağında öldür. Heç olmasa bu balama dəymə.

Qara Roza İsmayıl müəllimin qan axan əlinə yod çəkib sarıdı. Kişi əlini oğlunun ağzına aparanda barmaqları zədələnmişdi. " Kaş kör olaydım bala. Sənin bu gününü görməyəydim oğul!"

Yadına dünən gördüyü yuxu düşdü—Seyid Hüseyn iki əlini başına aparıb bomb...bomb deyirdi. Seyid Hüseyinin gözlərindən yaş axırdı Bəlkə də yarı yuxulu vəziyyətdə gördüyü bir ilğım idi. İsmayıl müəllim ınanırdı ki, ulu babası təsaədüfən görünməyib gözünə. Onun Əlidən başqa heç kimi yox idi. İsmayıl müıllim istəyərdi ki, özü tikə-tikə doğransın, ya da ki diri-diri odda yansın—təki oğluna bir şey olmasın. "Ölüm mənimdir oğul. Meyitim çiynində getsin, oğul"

***-İkidən birdən oğlunuz belə vəziyyətə düşüb?—soruşdu həkim.***

***-Bir dəfə uşaqlıqda qızdırması 40 çatmışdı. Onda belə hala düşmüşdü. Tib bacısı yenə də Əliyə iynələr vurdu. Əli artıq rahat nəfəs alırdı. İsmayıl müəllim üzünü Tələtə, otaqda olan xeyli adama tutub boğuq səslə dedi:***

***-Gedin sərdabəni hazırlayın. Uşağı evimə gətirin. Sonra apararıq nənəsinin yanına.***

***Ağlamamaq üçün əlləri əsə-əsə siqaret yandırdı. Siqaret tüstüsü içində o yenə Seyid Hüseyn Səfəvini gördü. Qoca əlində əsa İsmayıl müəllimə baxıb üfüqə tərəf getdi.***

***Onun üzündə sanki təbəssüm var idi.***

**Son**